**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.2.185**

**ELNARƏ MƏCİDOVA***

# ETNOCAZIN STRUKTUR ƏSASLARI HAQQINDA

*Bu məqalədə etnocazın bəzi struktur əsasları, xüsusən, ostinatlıq prinsipi problemi araşdırılır. Etnocaz kontekstində ostinatlıq onun milli spesifikliyinin göstəricisi olduğu göstərilir. Müqayisəli aspekt, yəni caz kompozisiyalarının əsas mövzularının və Azərbaycan muğamlarının mayesinin struktur vahidinin eyniləşdirilməsi təklif olunur.*

***Açar sözlər:** ostinatlıq, struktur, kompozisiya, forma, intonasiya, etnocaz.*

## Giriş

Etnocazın ən parlaq struktur əsaslarından biri ostinatlıqdır. Caz kompozisiyasının strukturunda ostinatlığın çıxış etməsi Azərbaycan xalq musiqisində formalaşmış prinsiplər əsasında baş verir. Başqa sözlə desək, Azərbaycan fortepiano musiqisində caz improvizasiyasının obrazlı-emosional mənası müəyyən qanunauyğunluqlara müvafiq olaraq açılır, bunların arasında aparıcı rollardan biri ostinatlığa mənsubdur.

## Əsas təhlil

XX əsrin sonu –XXI əsrin əvvəllərinə aid caz kompozisiyalarının özünəməxsusluğu və yeniliyi məlum strukturların orijinal təfsirində özünü göstərir. Caz sənətində qəbul edilmiş musiqi priyomlarının kompleksi mühüm vektoru ostinatlıq olan milli üslubun aparıcı əsaslarına istinad edir. Müasir Azərbaycan caz fortepiano sənətində bir çox caz kompozisiyalarının əsasını təşkil edən ostinatlıq prinsipi Azərbaycan ifaçılarının və bəstəkarlarının formanı ustalıqla mənimsədiyini əks etdirir.

Azərbaycan caz sənəti formatəşkilinin xüsusi keyfiyyətini nümayiş etdirir. Kompozisiyaların yaranma proseslərinin ən mühümündən biri ostinatlıqdır. Bu da qanunauyğundur, belə ki, sərbəst musiqi ifası , improvizasiyanın prioriteti şəraitində həm davamlılığın qarşıdurması, həm də musiqi mətninin yaranmasının kortəbiiliyi tərəfinə balansın olması zəruriliyi meydana çıxır.

Tədqiqatçı G.Mahmudovanın tezisinə görə, Azərbaycan musiqi mədəniyyətində ostinatlıq kompozisiyaarası prinsipdir (1, s.52). Mən deyərdim ki, ostinatlıq həm də üslublararası əlaqələrin əsasını təşkil edir.

Ostinatlığın caz musiqisinin əsaslarından biri olması faktını qeyd edərək bidirək ki, fortepiano caz ifaçıları improvizasiya və musiqi mətninin stabil vektorları ikiliyində birləşən caz kompozisiyalarının prosesuallığının məğzinə sahibdirlər. Tədqiqatçıların bildirdiyi kimi, əsasını, bir tərəfdən, başlanğıc materialın dəqiqliyi, ifadəliliyi, digər tərəfdən, musiqi parçasının kortəbii improvizasiyalı çevrilməsinin dinləyiciyə fəal yönəldilməsi təşkil edir. Məlumdur ki, improvizasiya sözü həm ifa üslubu, həm ifa forması, həm musiqi yaradıcılığı növü, həm də musiqinin keyfiyyəti deməkdir. Cazda improvizasiya, hər şeydən öncə, musiqi təfəkkürü metodu deməkdir.

İmprovizasiyanın əsaslarını öyrənən az sayda tədqiqatçılardan biri yazırdı: “improvizasiyalılıq anlayışını ümumilik dərəcəsinə görə, məsələn, simfonizm ilə bir sıraya qoymaq olar: hər ikisi musiqi materialının təşkilinin mühüm ifadəli tərəflərini və dərin prinsiplərini açan vacib, keyfiyyətli kateqoriyalar qrupuna aiddir” (2, s.113).

Cazın, o cümlədən, fortepiano cazının improvizasiya xarakteri musiqinin fəaliyyətinin, ifasının üsulunu göstərən onun əsas xüsusiyyətləridir. Caz musiqisinin daxili xüsusiyyəti kimi improvizasiyalılıq məzmun və formanın xüsusiyyətini müəyyənləşdirir.

Bununla əlaqədar etnocazın xüsusiyyətlərinə diqqət yetirək. Tədqiqatçıların ədalətli müşahidələrinə görə, caz və muğamı improvizasiyalı başlanğıc birləşdirir. Məhz ifadənin aniliyi, bilavasitəliyi, musiqi yaratmaq sərbəstliyi. Bununla yanaşı, müəyyən kanon, reqlament, dramaturji vektorların planlaşdırılması, musiqi ifadə vasitələrinin hərtərəfli seçimi həm muğamda, həm də caz kompozisiyalarında mövcuddur. Mahiyyətcə müxtəlif olan iki mədəni hadisədə müəyyən musiqi ideyası üzərində diqqəti cəmləşdirmək, fiksasiya faktının üst-üstə düşməsi də uyğundur. Əsərin improvizasiya axını caz musiqisinin mühüm vacib keyfiyyətinə istinad edir. Məhz aparıcı musiqi ideyalarına diqqəti cəmləşdirək.

İmprovizasiyanın universallığını qeyd edən S.Biryukov improvizasiyanın mühüm əlamətləri haqqında yazır: "İfadənin bilavasitə sərbəstliyi, yaradıcılığın, yaranmanın xüsusi xarakteri ilə bağlı maneəsizlik kimi ümumiləşdirici anı xüsusi olaraq qeyd edək" (2, s.113).

İmprovizasiyanın semantik əsasını ifadə azadlığı təşkil edir. Bu aspektdə caz musiqisi strukturunda ostinat hallar böyük rol oynamağa başlayır. Söhbət Azərbaycan cazından gedir, belə ki, ostinatlıq Azərbaycan xalq musiqisində olduğu kimi, Azərbaycan muğamlarında da aparıcı struktur və forma təşkiledici əhəmiyyətə malikdir.

Musiqi materialının improvizasiyalı inkişafı müəyyən musiqili-ifadə vasitələrinə əsaslanır. Bu aspektdə ostinatlığı qeyd edək. Xüsusi cəhətin təşkili ilə improvizasiyalı inkişafın sərbəstliyinin birləşməsi həm cazda, həm də muğamda öz suggestiv təsirinə görə identikdir, belə ki, daxili gərginlik musiqi təşəkkülünün fasiləsizliyi vasitəsilə reallaşır.Mən bunu improvizasiyaya daxili hazırlıq vəziyyəti kimi müəyyənləşdirdim. Bu, musaiqi materialını əvvəldən axıra qədər yaradıcı və fəal irəliləməyə imkan verən bir növ musiqi ifadəsidir.

Etnocaz nümunələrini təmsil edən əsərlərdə variantlı təkrarlıq kompozisiyalara daxil edilmişdir və üslubun əhəmiyyətli xüsusiyyətidir. Bundan əlavə, bu əsərlərin stabil qatının aydın ifadə olunmuş elementləri, deyildiyi kimi, strukturun improvizasiyalığı vasitəsilə təşkil edilmişdir.

Etnocaza aid əsərlərdə əsas və stabil vahid şəklində konkret kompleks seçilərsə, Azərbaycan muğamlarındakı mayə prinsipi ilə müəyyən assosiasiyalar yaranır. Bu cür ostinatlıq bizə istər-istəmiz Azərbaycan muğamlarındakı mayə strukturu ilə müqayisə etməyə gətirib çıxarır. Belə ki, "muğamda mayə formanın təkrarlanan, ostinatlıq qatını xarakterizə edir, bu, muğamda xüsusi, yalnız muğam formasına xas olan formanın digər qatı ilə - musiqi materialının yenilənməsi, variantlıq ilə qarşılıqlı münasibətə keçir" (3, s.31).

Həmçinin, əlavə edək ki, Azərbaycan muğamında struktur bütöv kimi mayə təkcə muğamın şöbəsi və ya əsas tematik vahidi deyil, həm də muğamın əsas ladtonallığını müəyyən edir. Sitatı davam etdirərək qeyd edək ki, mayə - "gələcək hərəkət üçün stimuldur, belə ki, özündə refren fazasının funksiyasını daşıyır, bu da vaxtaşırı təkrarlanaraq bütün formanın və kulminasiyanın funksiyasını möhkəmlədir. Mayə - başlanğıcın əsası, sonun hiss edilməsi, inkişafın mərkəzi nöqtəsidir" (3, s.31).

Bu gün caz sənətinin müvəffəqiyyət qazanmasında milli spesifika həlledici amildir. Caz kontekstinə məhz milli əhəmiyyət kəsb edən intonasiyaların, struktur elementlərin daxil edilməsindən caz əsərinin musiqi dilinin özünəməxsusluğu asılıdır. Etnocazda ostinatlıq milli üslubun markeridir.

Deyilənləri daha bir sitatla qeyd edək. Muğamda ostinat fəaliyyət göstərən tematik əhəmiyyətli kadensiyalı qrupların semantikası G.Mahmudova tərəfindən xarakterizə edilir: " Tonika kadensiyaları müəyyən bədii-ifadəli effekt yaradır. Belə bir təsəvvür yaranır ki, sanki tonika kadensiyalı qrupların intonasiyalı enerjisi çox əhəmiyyətli, dəyərli olaraq, həm də muğam kompozisiyasının digər sahələrinə ostinatlıq prinsipi üzrə reallaşaraq yayılır" (1, s.50).

Azərbaycan etnocazında ostinatlıq formalarına baxaraq digər funksiyanı, yəni onun əsas vəzifəsi olan milli musiqi ifasının semantikasını yaratmasını qeyd edim. Mən materialın təşəkkülünün bu tipini formayaradıcı adlandırardım, belə ki, əsas musiqi ideyasının dövri olaraq qayıtması improvizasiyalı inkişaf ilə müqayisə edilir.

Fortepiano etnocaz sənətində ostinat formayaradıcı proseslərin fəallığını və ifadəliliyini qeyd edək. Mayə prinsipinin ostinat potensialından istifadə edərək, bəstəkar bu zaman caz fortepiano sənətinin mühüm vektorlarına əsaslanır. Məsələn, intonasiyalı-ritmik parlaqlıq, əsa dramaturji xətlərin aşkarlanmasının dəqiqliyi, ritmik relyefliyi.

"Tonika kadensiyaları qruplarının intonasiyalı enerjisi çox əhəmiyyətli, dəyərli olaraq, həm də muğam kompozisiyasının digər sahələrinə ostinatlıq prinsipi üzrə reallaşaraq yayılır (1, s.50). Analoji prosesi biz Azərbaycan fortepiano sənətində etnocaz əsərlərinin kompozisiyasında da müşahidə edirik. Beləliklə, etnocaz strukturunda ostinatlıq semantik əhəmiyyət əldə edir.

Qeyd edək ki, ostinat komplekslər iki vəziyyətə görə öz ifadəliliyilə fərqlənir. Birincisi, aydın ostinat xətt keyfiyyətini əldə etməyi bacaran parlaq intonasiyalı-ritmik element zəruridir. İkincisi, məhz belə komplekslər formatəşkili vektoru şəklində fəaliyyət göstərirlər, belə ki, vasitəli prosesuallıq əsərin ümumi bütövlüyü ilə sintez edilmişdir.

Natamamlıq onları iradənin ifadəsinin daimiliyi və stabilliyi ilə assosiasiya olunan ostinat komplekslərin hərtərəfli seçimi ilə müqayisə edilir. Əsasını ostinat proseslər təşkil edən belə bir quruluş prinsipi etnocaz üslubunda kompozisiyalar üçün olduqca spesifikdir. Ostinatlıq etnocaz kontekstində dinamik funksiyaları yerinə yetirir. Belə ki, məsələn, kompozisiyanın spesifik işarəsi kimi ritmik formula musiqi mətninin əsas özəklərindən biri olur. İntonasiyalı ritmik yenilənmənin davamlılığı və daimiliyi kompozisiyanı bərkidən elementləri tələb edir. Özəyin funksiyaları caz əsərlərinin ostinat tərkib hissələrini öz üzərinə götürür.

Müəyyən əsərlərdə ostinatlıq elə mühüm əhəmiyyət kəsb edir ki, kompozisiya bütövlükdə monoteist struktur kimi təqdim olunur. Bu halda əsərin kompozisiya birliyi əsas ideyanın və onun çoxsaylı ostinatlı və variantlı təkrarlarının elanına istinad edir. Bu aspektdə qeyd etmək lazımdır ki, ostinat komplekslərdə musiqi materialının inkişafının bütün mərhələləri ümumiləşdirilir.

**Nəticə**

Caz kompozisiyasında ostinatlıq bir neçə vacib funksiya yerinə yetirir. Birincisi, ostinatlığı formanı birləşdirən və ona bütövlük və birlik verən vasitə kimi qeyd edək. İkincisi, ostinatlıq forma təşkilinin üstün üsulunu təşkil edir. Üçüncüsü, sabit modellərin dramaturgiyası ilə musiqi mətninin improvizasiyalı çevrilməsinin müqayisəsi də həmçinin, etnocazın mühüm tipoloji əlamətidir. Bu da qanunauyğundur. Azərbaycan musiqisində ostinatlıq prinsipinin tədqiqatçısı G.Mahmudova ostinatlığı "bədii məzmunun təsirli, məhsuldar və intensiv amili" kimi müəyyənləşdirir (1, s.4).

Fortepiano cazı sahəsinə aid əsərlərdə ostinatlığı təhlil edərək xüsusilə qeyd edək ki, ostinatlıq Azərbaycan caz musiqisi nümayəndələrinin yaradıcılığını birləşdirən kateqoriyadır.

## ƏDƏBİYYAT

1.Махмудова Г.Р.Генезис и эволюция остинатности в азербайджанской музыке. Баку, Нурлан, 2006.
2.Бирюков С.Импровизационность в музыке . – Советская музыка, 1977, №3.
3.Мамедова Р.А. Проблемы функциональности в азербайджанской музыке.

***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının***
***baş müəllimi və dissertantı.***
***E-mail: m.elnara@rambler.ru***

**Elnara Majidova**

## ON THE STRUCTURAL BASIS OF ETHNOCHAS

This article explores some structural foundations of ethnoc jazz, particularly the issue of the principle of ostinato. In the context of ethnoc jazz, ostinato is shown to be an indicator of its national specificity. A comparative aspect is proposed, identifying the structural units of the main themes of jazz compositions and Azerbaijani mugham.

**Keywords:** *ostinato, structure, composition, form, intonation, ethnoc jazz.*

**Эльнара Меджидова**

## О СТРУКТУРНЫХ ОСНОВАНИЯХ ЭТНОДЖАЗА

В данной статье рассматривается некоторые структурные основания этноджаза, в частности, проблема принципа остинатности. Подчеркивается, что остинатность в контексте этноджаза является маркером его национальной специфики. Предлагается сравнительный аспект, а именно, идентификации главных тем джазовых композиций и структурной единицы майе азербайджанских мугамов.

**Ключевые слова:** *остинатность, структура, композиция, форма, интонация, этноджаз.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 21.04.2025**
**Son daxilolma tarixi:18.05.2025**